# İnsanların sağlamlığı keşiyində

Son illər Bakının Nərimanov rayonunda digər sahələrlə yanaşı, səhiyyə sahəsində də mühüm islahatlar həyata keçirilmiş, Prezident İlham Əliyevin qayğı və diqqəti nəticəsində tibb ocaqlarının fəaliyyətində müsbət dəyişikliklər baş vermiş, kadr potensialı güclənmiş, xəstəxana və poliklinikalarda əsaslı təmir işləri aparılmışdır.

Əhalinin sağlamlığının qorunub saxlanılması istiqamətində rayonun 14 saylı poliklinikasında məqsədyönlü iş aparılır. Poliklinika "Gənclik" metrosunun yaxınlığında, füsunkar bir guşədə yerləşir. Günün bütün vaxtı bu sağlamlıq ocağına gedib-gələn insanların ardı-arası kəsilmir. Valideynlər uşaq poliklinikasına ümidlə gəlirlər. Onlar yaxşı bilirlər ki, poliklinikada uşaqların müayinə və müalicəsi müasir tələblər səviyyəsindədir. Ağ xalatlı ömür keşikçiləri müxtəlif xəstəliklərin aradan qaldırılması üçün var qüvvə ilə çalışırlar.

Biz poliklinikada olarkən nahar fasiləsinə az qalırdı. Valideynlər azyaşlı uşaqları ilə birlikdə növbə ilə həkimlərim qəbulunda olur, müayinələr dəqiqliklə aparılır, hamı onlara göstərilən tibbi xidmətdən razılıqla danışırdı.

Poliklinikada qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlara qayğı və diqqət göstərilir. Təyin olunan müalicələr həmişə öz səmərəsini verir, xəstəliklərlə bağlı insanların narahatlığına son qoyulur.

Biz tibb ocağında olarkən ilk görüşümüz Elmira adlı yaşlı bir qadınla oldu. O, bir nənə kimi poliklinikanın kollektivindən razı qaldığını bildirdi. Qeyd etdi ki, 3-4 ay öncə ailələrində narahat anlar yaşanırdı. Nəvəsi Mahmudun səhhətində müəyyən problemlər yaranmışdı. Hərarəti aşağı düşmür, gecələr uşaqda yuxusuzluq halları müşahidə olunurdu. Budur, indi artıq narahat anlara son qoyulmuşdur. Uşağın səhhəti normaldır. Həkimin məsləhəti ilə həftədə bir dəfə uşaq tibbi müayinədən keçir, valideyn kimi bizə lazımi göstərişlər verilir.

Biz poliklinikada digər valideynlərlə də söhbət etdik. Onların hər biri səhiyyə işçilərinin fəaliyyətindən razılıqla danışdı.

14 saylı poliklinikanın baş həkimi peşəsinin vurğunu olan, insanların hörmət və izzətini qazanmış Nüşabə Əsədovadır. O çalışır ki, poliklinikaya gələn hər bir insan bu səhiyyə ocağından xoş təəssüratla ayrılsın, həkimlər körpə uşaqların xidmətində müsəlləh əsgər kimi dayansınlar.

Söhbət əsnasında baş həkim **Nüşabə xanım Əsədova** vurğuladı ki, əvvəllər poliklinikada bina şəraiti olduqca bərbad vəziyyətdə idi. Budur, indi həmin şəraitdən əsər-əlamət qalmayıb. Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyevin qayğı və diqqəti sayəsində bir neçə il öncə poliklinikada əsaslı təmir işləri aparılmış, burada xəstəliklərin müayinə və müalicəsi üçün hər cür şərait yaradılmışdır. Ayrı-ayrı tibb kabinetləri müasir avadanlıqlarla təchiz olunmuş, uşaqların sağlamlığının qorunub saxlanması üçün hər cür şərait yaradılmışdır.

Poliklinikada uşaqların sağlam böyümələri üçün xüsusi guşə ayrılmışdır. Əyani təşviqat işləri diqqəti cəlb edir. Mütəmadi olaraq poliklinikanın xidmət etdiyi ərazidə rayon sakinləri arasında



geniş maarifləndirmə işləri aparılır.

Poliklinikanın ərazisində abadlıq və quruculuq işlərinə də yaxından diqqət yetirilir. Ekoloji tarazlığın qorunmasına ciddi səy göstərilir.

Ümumiyyətlə, Nərimanov rayonundakı 14 saylı uşaq poliklinikasında ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələr uğurla həyata keçirilir, buradakı xidmət işi dünya standartlarına tam cavab verir.

**Söhbəti yazdı:**
**Qədir ASLAN,**
**"Respublika".**